# Azərbaycan qüdrətli dövlətə çevrilir



***Prezident İlham Əliyevin apardığı iqtisadi islahatlar, yeritdiyi güclü, qətiyyətli və uzaqgörən siyasət nəticəsində Azərbaycan təkcə regionda deyil, bütün dünyada qüdrətli ölkəyə çevrilmişdir. Ölkəmizin beynəlxalq aləmdəki nüfuzu durmadan artmaqdadır. 2022-ci ilin altı ayının yekunlarına həsr olunmuş müşavirədə dövlət başçımızın nitqindən də bəlli oldu ki, ölkəmiz çətin vəziyyətlərdən alnıaçıq, üzüağ çıxıb. Respublikamız üzv olduğu və tərəfdaşlıq etdiyi bütün beynəlxalq təşkilatlarda fəal olmaqla yanaşı, həmin təşkilatlarda əhəmiyyətli təkliflər irəli sürür və bütün dövlətlər tərəfindən yüksək qiymətləndirilir.***

Azərbaycan həm də təşəbbüskar dövlət kimi tanınır. Məsələn, ölkəmizin sədrliyi dövründə Qoşulmama Hərəkatı dünyada nüfuzunu xeyli artırıb. Məhz möhtərəm Prezidentimizin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yaradıldı və Bakıda Parlament Şəbəkəsinin toplantısı keçirildi. Bu toplantıda Qoşulmama Hərəkatının çox böyük potensialının olduğu və beynəlxalq siyasətə təsir edə biləcək bir təşkilat olması bir daha təsdiqləndi.

Humanitar sahədə də Azərbaycan bütün dünyaya örnək ola biləcək böyük işlərə imza atmaqdadır. Xüsusilə COVID -19 pandemiyası ilə əlaqədar Azərbaycan 80-dən çox ölkəyə humanitar və maliyyə yardımı göstərib. Azərbaycanın ehtiyacı olan dövlətlərə göstərdiyi bu təmənnasız yardımdan sonra ölkəmizin beynəlxalq aləmdə nüfuzu xeyli artıb.

Son dövrlər Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr sürətli inkişaf mərhələsinə qədəm qoyub. Avropada yaranmış enerji böhranı ilə əlaqədar Azərbaycan Avropanın enerji təhlükəsizliyində əvəzolunmaz rol oynayır. Yaxın vaxtlarda Azərbaycan ilə Avropa arasında enerji təhlükəsizliyi ilə bağlı imzalanacaq saziş bu əməkdaşlığı daha yüksək səviyyəyə qaldıracaq.

Türk Dövlətləri Təşkilatının fəaliyyətinin və nüfuzunun artmasında da Azərbaycan çox faydalı siyasət aparır. Türk dövlətləri ilə əlaqələri daha da inkişaf etdirmək Azərbaycan dövlətinin xarici siyasətinin ən prioritet məsələlərindən biridir. Ölkəmiz qonşu dövlətlər olan Rusiya, Gürcüstan və İranla hər zaman dostluq münasibətlərinin qurulmasına böyük önəm verir.

Prezident İlham Əliyevin yeritdiyi müdrik xarici siyasətin nəticəsində Azərbaycan və ABŞ arasında münasibətlər yüksək səviyyədə inkişaf etməkdədir. Dövlət başçımız öz nitqində də buna önəm verdi. Prezident Co Baydenin bugünlərdə cənab İlham Əliyevə iki dəfə məktub ünvanlaması və Azərbaycanla bağlı söylədiyi fikirlər onu deməyə əsas verir ki, ABŞ Azərbaycanı özünə dost və müttəfiq ölkə hesab edir.

Möhtərəm Prezidentimiz cari ilin altı ayı ərzində Azərbaycan–Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atılmasına baxmayaraq, hələ ki, real nəticələrin olmamasını da vurğuladı. Vətən müharibəsindən iki ilə yaxın vaxt keçsə də Ermənistan öz üzərinə düşən öhdəlikləri yerinə yetirmir. Halbuki, 10 noyabr 2020-ci ildə Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri Bəyannamə imzalayıblar. Ermənistan məğlub ölkə olaraq, öz üzərinə düşən öhdəlikləri icra etməli idi. Təəssüf ki, məğlub ölkə bu addımı atmaq istəmir. 10 noyabr Bəyannaməsinə əsasən, Azərbaycan Laçın dəhlizinin açılmasına və təhlükəsizliyinə zəmanət verməklə öz üzərinə düşən öhdəlikləri yerinə yetirdi. Ermənistan isə Azərbaycanla Naxçıvanı birləşdirən yolun açılması barədə öhdəlikləri yerinə yetirmədi. Azərbaycanı Naxçıvanla birləşdirəcək və Ermənistan ərazisindən keçən Zəngəzur dəhlizinin açılması istiqamətində Ermənistan tərəfindən heç layihələndirmə işləri belə aparılmayıb. Müharibə başa çatdıqdan sonra Qarabağa heç bir statusun verilməyəcəyi barədə Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyi razılığa gəlmişdilər. Əvvəllər Ermənistan rəhbərliyi bu razılaşmaya riayət edirdi, lakin son zamanlar onlar yenidən status məsələsini gündəmə gətirməyə başlayıblar. Cənab İlham Əliyevin də vurğuladığı kimi, bu, Ermənistanın özünü çox təhlükəli vəziyyətdə qoya bilər.

ATƏT-in keçmiş Minsk qrupunun fəaliyyətinin bərpa edilməsi ilə bağlı tez-tez Ermənistan rəhbərliyi tərəfindən əsassız fikirlər irəli sürülür. Minsk qrupunun həmsədr dövlətlərindən biri olan Rusiya da qeyd edib ki, bu qurum artıq fəaliyyət göstərə bilməz.

Azərbaycan Ordusu müharibədə qələbə qazanmasına baxmayaraq, silahlı qüvvələrimizdə və hərbi təhsildə böyük islahatlar aparılır. Ali Baş Komandan İlham Əliyev silahlı qüvvələrimizin maddi texniki bazasının genişləndirilməsinə, ən müasir və yüksək texnologiyalara malik silahlarla təchiz edilməsinə xüsusi diqqət ayırır. Hərbiçilərimizin sosial müdafiəsi məsələsi də hər zaman Prezidentimizin diqqətindədir. Qüsursuz hərbi xidmət aparan hərbiçilərimiz mənzillərlə təmin edilir, yeni hərbi hissələr yaradılır və işğaldan azad edilmiş torpaqlarımızda xidmət keçən hərbçilərimiz üçün hər cür infrastruktura malik hərbi şəhərciklər salınır. Müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərimizin sosial problemləri daim ölkə rəhbərliyinin diqqətindədir. Müharibə zamanı əlil olmuş hərbçilərimizə də hər cür diqqət və qayğı göstərilir. Onlar ən müasir protezlərlə təmin olunurlar. Şəhid ailələri və müharibədə sağlamlığını itirmiş hərbçilərimiz mənzil və fərdi evlərlə təmin edilirlər. Təkcə bu il 1500 mənzil və fərdi ev tikilərək qazilərə və şəhid ailələrinə təhvil verilib.

Bu gün Qarabağ və Şərqi Zəngəzur yenidən qurulur. Ermənistan tərəfindən dağıdılıb viran qoyulmuş şəhər və kəndlərimizi bərpa edirik. Bütün bu işləri Azərbaycan öz gücünə görür və heç kimdən bir manat yardım almır. Bu, Azərbaycan dövlətinin iqtisadi gücünün göstəricisidir. Ölkəmiz hər il iqtisadi cəhətdən daha da güclü bir dövlətə çevrilməkdədir. Azərbaycanın iqtisadi cəhətdən güclənməsi onun dünyada siyasi müstəqilliyini də gücləndirir. Bu gün heç bir dövlət, heç bir qüvvə Azərbaycana nəsə diktə edə bilməz.

Azərbaycan büdcəsi tək neft hesabına deyil, Prezident İlham Əliyevin apardığı iqtisadi islahatlar nəticəsində, digər sahələrin də sürətli inkişafı hesabına artıb. Bu gün aparılan iqtisadi islahatlar, eləcə də, bütün sahələrdə gedən şəffaflıq nəticəsində, altı ay ərzində təkcə vergilər sahəsindən büdcəyə proqnozdan əlavə 2 milyard manat vəsait daxil olub.

Azərbaycanda enerji istehsalında da böyük işlər aparılıb. Bərpa olunan enerji sahəsində, xüsusilə böyük layihələrə imza atılıb. Bu sahədə Azərbaycan dünyada ən öndə gedən dövlətlərdən biridir. Bununla yanaşı işğaldan azad edilmiş rayonlarlmızda 10-a yaxın su elektrik stansiyaları tikilib və bu işlər davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərimizdə işlər çox sürətli və planlı şəkildə davam etdirilir. Artıq Ağalı kəndi istifadəyə verilib. Artıq bu kəndin sakinlərinin bir qisminin doğma dədə-baba yurdlarına qayıdıblar.

Müşavirədə diqqətə çatdırılan məsələlərdən biri də ərzaq təhlükəsizliyi ilə bağlı oldu. Hazırda bu sahədə böyük və təxirəsalınmaz işlər həyata keçirilir. Pandemiya və digər səbəblərdən bu gün dünya ərzaq problemi ilə üz-üzədir. Azərbaycan da taxıl idxal edən ölkələrdəndir. Bu problemi aradan qaldırmaq üçün Prezidentin tapşırığına əsasən, işğaldan azad edilmiş torpaqlarla yanaşı bütün bölgələrimizdə taxıl əkiləcək. Bu, ərzaq təhlükəsizliyimizin təmin olunmasına böyük töhfə verəcək.

Gələn ilin dövlət, hər il olduğu kimi, əsas istiqamət sosial istiqamət olacaq. Dövlət başçımızın apardığı siyasətin əsas qayəsini Azərbaycan xalqının rifahı təşkil edir.

Bu gün xarici və yerli sahibkarların Azərbaycana investisiya yatırmaları üçün hər cür şərait yaradılıb. Bir çox böyük xarici şirkətlər Azərbaycana investisiya yatırırlar. Bu, Azərbaycan dövlətinə və onun lideri cənab İlham Əliyevə olan inamın nümunəsidir.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor***

Xalq qəzeti .- 2022.- 26 iyul.- S.3.